https://doi.org/10.59849/3006-1342.2026.2.12
UOT 94(479.24-25)

*Şirxan Dadaş oğlu Səlimov*
*Sumqayıt Dövlət Universiteti*
*Tarix elmləri doktoru, professor*
*E-mail:* salimov.shirxan@sdu.edu.az
*Orcid:* 0000-0002-5723-2123
*Kəmalə Kamal qızı Mirzəyeva*
*Sumqayıt Dövlət Universiteti*
*Müəllim*
*E-mail:* kamala.mirzayeva@sdu.edu.az
*ORCID:* 0000-0001-7564-532X

# BAKI ŞƏHƏRİNİN TİMSALINDA AZƏRBAYCAN ŞƏHƏRSALMA VƏ MEMARLIQ ƏNƏNƏLƏRİNİN TARİXİ İNKİŞAFI

*Məqalədə Bakı şəhərinin timsalında Azərbaycan şəhərsalma və memarlıq ənənələrinin tarixi inkişaf mərhələləri araşdırılmış, şəhərin formalaşmasına təsir edən əsas amillər tarixi və elmi əsaslarla təhlil edilmişdir. Tədqiqat göstərir ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi, xüsusilə Böyük İpək Yolu üzərində yerləşməsi şəhərsalma proseslərinin formalaşmasına və inkişafına mühüm təsir göstərmişdir. Bu baxımdan Bakı şəhəri qədim dövrlərdən etibarən mühüm yaşayış, ticarət və mədəniyyət mərkəzi kimi inkişaf etmişdir.*

*Araşdırmada Bakının qədim və orta əsrlər dövründə keçdiyi inkişaf yolu, İçərişəhər ərazisində aparılan arxeoloji tədqiqatlar, şəhərin iqtisadi potensialı və memarlıq ənənələrinin formalaşması geniş şəkildə izah edilmişdir. Xüsusilə Şirvanşahlar Sarayı kompleksi, Qız qalası, karvansaraylar və digər tarixi memarlıq nümunələri şəhərin zəngin memarlıq irsinin əsas göstəriciləri kimi qiymətləndirilmişdir. Məqalədə neft sənayesinin inkişafı ilə Bakının şəhərsalma strukturunda baş verən əsaslı dəyişikliklər, şəhərin sənaye və ticarət mərkəzinə çevrilməsi, Şərq və Qərb memarlıq üslublarının sintezi nəticəsində formalaşmış yeni urban mühit xüsusi vurğulanmışdır.*

*Müasir dövrdə Bakıda həyata keçirilən şəhərsalma siyasəti tarixi-mədəni irsin qorunması ilə yanaşı, müasir urbanizasiya prinsiplərinin tətbiqinə əsaslanır. "Ağ şəhər", Heydər Əliyev Mərkəzi, Alov qüllələri və digər müasir memarlıq nümunələri şəhərin yeni inkişaf modelinin göstəricisidir. Nəticə etibarilə, Bakı şəhərinin timsalında Azərbaycan şəhərsalma və memarlıq ənənələrinin inkişafı tarixi davamlılıq, transformasiya və müasir yanaşmaların vəhdəti əsasında formalaşmışdır.*

*Açar sözlər:* Bakı şəhəri, şəhərsalma, memarlıq ənənələri, urbanizasiya, neft sənayesi, müasir inkişaf

## *Giriş*

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq ənənələrinə uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır. Bu baxımdan Bakı şəhəri Azərbaycanın şəhərsalma və memarlıq tarixinin öyrənilməsi üçün ən əhəmiyyətli nümunələrdən biridir. Qədim dövrlərdən etibarən mühüm yaşayış və ticarət mərkəzi kimi formalaşan Bakı müxtəlif tarixi mərhələlərdə fərqli inkişaf xüsusiyyətləri qazanmışdır. Şəhərin inkişafına təsir edən amillər sırasında təbii-coğrafi şərait,

iqtisadi potensial, xüsusilə neft ehtiyatları, eləcə də müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri xüsusi yer tutur.

**Əsas mətn.** Şəhərsalma yalnız binaların yerləşdirilməsi və yolların planlaşdırılması deyil. O, insanların yaşayış keyfiyyətini artıran sosial, mədəni və ekoloji aspektləri əhatə edir. Bu gün Azərbaycanın şəhərlərinə baxarkən keçmişlə gələcəyin bir nöqtədə qovuşduğunu görmək mümkündür. Qədim qala divarları ilə əhatələnmiş İçərişəhərdən tutmuş şüşə və metal konstruksiyaları ilə seçilən müasir binalara qədər hər detal şəhərsalmanın inkişaf etdiyini göstərir [10].

Bakı memarlığı uzunmüddətli və çoxşaxəli inkişaf yolu keçmişdir. Bu inkişaf prosesi Sasani dövründən başlayaraq erkən İslam mərhələsindən keçmiş, zamanla yeni bədii və konstruktiv xüsusiyyətlər qazanaraq öz zirvəsinə Şirvanşahlar Sarayı kompleksində çatmışdır. Şirvanşahlar memarlıq ansamblının təsiri yalnız Şirvan bölgəsi ilə məhdudlaşmamış, daha geniş coğrafiyada – müsəlman Şərqi ölkələrində də özünü göstərmişdir. Bu təsir xüsusilə Osmanlı Türkiyəsi, Səfəvilər dövrü İranı və Orta Asiya memarlığında, o cümlədən portal kompozisiyalarında, ornamental bəzəklərdə və konstruktiv həllərdə aydın şəkildə müşahidə olunur. Azərbaycanın mühüm şəhərlərindən biri olan Bakı həm də Abşeron yarımadasında qədim dövrlərdən insanların məskunlaşdığı əsas mərkəzlərdən biri kimi çıxış etmişdir [1, s. 27].

Bakının qədim tarixinin öyrənilməsində xüsusilə qədim şəhər hissəsi olan İçərişəhərdə və onun ətrafında aşkar edilmiş arxeoloji tapıntılar mühüm elmi əhəmiyyət kəsb edir.

İçərişəhər ərazisində, Bakı yüksəkliyinin zirvəsində yerləşən Şirvanşahlar sarayı kompleksində aparılan tədqiqatlar nəticəsində qayalıq sahədə Qobustandakı kasavari oyuqlara bənzər izlər, həmçinin içərisində saxsı qablar yerləşdirilmiş qəbirlərin mövcudluğu müəyyən edilmişdir. Bu tapıntılar həmin ərazidə islamdan əvvəlki dövrlərə aid çoxqatlı qəbiristanlığın mövcud olduğunu və Bakının Tunc və Antik dövrlərdə yaşayış məskəni kimi formalaşdığını göstərir. Bundan əlavə, İçərişəhər ərazisində aşkar edilmiş, Antik dövr memarlığında geniş yayılmış sütun altlıqlarını xatırladan iki konstruktiv element qədim Bakı qalasının Antik dövr şəhəri kimi qiymətləndirilməsinə əsas verir. Bu faktlar şəhərin tarixinin iki min ildən artıq bir dövrü əhatə etdiyini deməyə imkan yaradır [8].

Bəzi tədqiqatçılar Bakını qədim mənbələrdə qeyd olunan Qaytara (Qanqara), Albana və Baruka kimi toponimlərlə eyniləşdirməyə çalışırlar. Şəhər ərazisində aşkar edilmiş V–VII əsrlərə aid Sasani dövrünə məxsus dəfinə həmin dövrdə burada yaşayışın mövcud olduğunu təsdiqləyir. Tarixi mənbələrdə Bakının adı müxtəlif formalarda qeyd edilmişdir. V–VI əsr mənbələrində "Bağavan" və "Ataş-i Baquan", X əsr ərəb müəlliflərində "Bakuyə", "Bakuh" və "Baku", XV əsr rus mənbələrində "Baka", Səfəvilər dövrünə aid farsdilli qaynaqlarda isə "Badkubə" kimi təqdim olunmuşdur [6].

Bununla yanaşı, qədim yazılı mənbələrdə "möcüzəli şəhər" kimi qeyd edilən Bakının çox qədim tarixə malik olduğu məlumdur. Tarixin müxtəlif dövrlərində bu ərazilərə səfər etmiş səyyahlar Abşeron yarımadasında müşahidə olunan "əbədi alovlar" haqqında heyranlıqla bəhs etmişlər. Bakı barədə ilkin məlumatlara eramızdan təxminən 3500 il əvvələ aid mənbələrdə rast gəlinməsi şəhərin qədimliyini təsdiqləyən mühüm faktorlardan biridir [5]. Tədqiqatçı Sara Aşurbəylinin fikrinə görə, "Bakı" toponimi "Baadi-Kubə" (küləklər şəhəri) ilə yanaşı, "Atəşi-Baqavan" – yəni "Odlar Yurdu" mənası ilə də əlaqələndirilir. Bu xüsusiyyətlər bu gün də şəhərin təbii və mədəni kimliyinin əsas cəhətlərindən biri kimi qalmaqdadır [3].

"Bakı" toponimi zamanla müxtəlif fonetik və semantik dəyişikliklərə məruz qalaraq "Baqavan", "Atəşi-Baqavan", "Atəşi-Baquan", "Bakuh", "Bakuyə", "Badkubə" kimi formalar keçmiş və müasir "Bakı/Baku" formasına gəlib çatmışdır. Sözün mənası müxtəlif dillərdə fərqli şəkildə izah olunur: ərəb dilində "əbədi", "sonsuz", "qalıcı", türk dillərində isə

"müqəddəs" və ya "toxunulmaz" anlamlarını ifadə edir. Bundan əlavə, Avesta və qədim İran dillərində "baqa" və ya "baq" anlayışı "tanrı" mənasını daşıyır və bu söz sonradan rus dilinə "boq" formasında keçmişdir. Bu baxımdan, Bakının adı bəzi tədqiqatçılar tərəfindən bölgədəki yanar neft və qaz çıxışları ilə əlaqələndirilərək "tanrı şəhəri" və ya "müqəddəs məkan" kimi də şərh olunur [8].

Erkən orta əsrlərdə Bakının iqtisadi həyatı əsasən neft və duz hasilatı, eləcə də Abşeron ərazisində yetişdirilən boyaqotu və zəfəran kimi məhsulların istehsalı ilə səciyyələnirdi. Bu məhsulların həm quru karvan yolları, həm də dəniz vasitəsilə uzaq Şərq ölkələrinə ixracı şəhərin iqtisadi inkişafına mühüm təkan verən amillərdən biri olmuşdur [6].

İçərişəhər ərazisində müxtəlif dövrlərdə aparılmış arxeoloji qazıntılar göstərir ki, Bakı təpəsinin zirvəsində yaşayış və tikinti fəaliyyəti ən azı IX əsrdən etibarən mövcud olmuşdur. Bununla yanaşı, bəzi tədqiqatçılar şəhərin yaranma tarixini daha erkən – VI əsrə aid edirlər. Uzunmüddətli arxeoloji araşdırmalar nəticəsində əldə olunmuş materiallar burada istehkam, dini və mülki memarlıq nümunələrinin mövcudluğunu sübut edir. İçərişəhər ərazisində islamdan əvvəlki dövrlərə aid dini tikililər, məbədlər, su anbarları, hamamlar, karvansaraylar, eləcə də zadəganlara, tacirlərə və sənətkarlara məxsus yaşayış evləri və emalatxanalar aşkar edilmişdir. Bu tapıntılar orta əsr müsəlman şəhərinin formalaşma xüsusiyyətlərini, həmçinin bölgənin sosial-iqtisadi və mədəni inkişaf dinamikasını araşdırmaq üçün mühüm mənbə rolunu oynayır. Ümumilikdə, Bakının kiçik yaşayış məntəqəsindən orta miqyaslı şəhərə çevrilməsində əsas amillərdən biri güclü iqtisadi və sənaye potensialının mövcudluğu olmuşdur [15].

Əl-Məsudi "Muruc əz-zəhəb və məavhin-əl cav- har" ("Qızıl yuyulan yer və cavahirat mədənləri") adlı əsərində yazır: O qeyd edirdi ki, bu ərazi müxtəlif növ neft yataqları ilə zəngindir və xüsusilə "ağ neft"in mövcudluğu ilə seçilir. Müəllifin yazdıqlarına görə, belə neft növü başqa bölgələrdə rast gəlinmir və Bakı bu baxımdan xüsusi yer tutur. Bundan əlavə, yerin alt qatlarından vulkanvari şəkildə çıxan və sönməyən alovların mövcudluğu da bu ərazinin təbii xüsusiyyətləri sırasında göstərilir. Əl-Məsudi Bakını Şirvan ölkəsinin sahil şəhərlərindən biri kimi xarakterizə etmişdir.

Onun digər əsəri olan "Xəbərdarlıq və yenidən gözdən keçirmə kitabı"nda da Bakı haqqında məlumatlara rast gəlinir. Burada şəhər "Bakulı" və ya "Bakuh" adı ilə qeyd olunur və buradan ağ neftin daşındığı vurğulanır. Eyni zamanda, bölgədə vulkanik fəaliyyətin müşahidə edildiyi, neft yataqlarının yaxınlığında yerləşən adalarda isə gecə vaxtı uzaq məsafədən görünən alov mənbələrinin olduğu bildirilir. Bu məlumatlar Bakının qədim dövrlərdən etibarən neft və təbii enerji ehtiyatları ilə tanınan mühüm mərkəz olduğunu təsdiqləyir [11, s. 2].

X əsrdə Bakıdakı iki əsas neft yatağından əldə olunan gəlirin illik təxminən 720 min dirhəm təşkil etdiyi barədə məlumatlar həmin dövrün səyyahı Əbu Duləfin qeydlərində əksini tapmışdır. Bu fakt şəhərin iqtisadi potensialının yüksək səviyyədə olduğunu göstərir. Beynəlxalq ticarət yollarının kəsişməsində yerləşən Bakı, Şərq və Qərb ölkələri arasında ticarət əlaqələrinin inkişafında mühüm rol oynayırdı. Azərbaycanın ümumilikdə Avropa ilə Asiya arasında yerləşməsi Bakı-Abşeron bölgəsini Uzaq Şərqdən Avropaya doğru uzanan əlaqələrin əsas keçid nöqtələrindən birinə çevirmişdi. Bu səbəbdən Böyük İpək Yolu üzərində hərəkət edən karvanlar üçün Bakı mühüm dayanacaq məntəqəsi kimi çıxış edirdi [5].

XI–XII əsrlərdə Bakı artıq Şərq dünyasında mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri kimi tanınırdı. XV–XVII əsrlərin sonlarına doğru isə şəhər Şərq və Avropa mənşəli malların toplandığı, müxtəlif regionlardan – Rusiya, Avropa, Osmanlı Türkiyəsi, Orta Asiya və Uzaq Şərqdən gələn tacirlərin cəmləşdiyi əsas tranzit məntəqələrdən birinə çevrilmişdir. Ticarətin bu cür dinamik inkişafı şəhərsalma proseslərinə də ciddi təsir göstərmiş, iri memarlıq komplekslərinin inşasına təkan vermişdir. Nəticədə karvansaraylar,

hamamlar, dini tikililər və digər ictimai obyektlər geniş şəkildə tikilmiş, onların bir qismi günümüzə qədər qorunub saxlanmışdır [8].

Bakı artıq XII əsrdə mühüm bir yaşayış məntəqəsi kimi tanınmışdır... Böyük Azərbaycan şairi Nizami Gəncəvi özünün "İsgəndərnamə" poemasında Makedoniyalı İsgəndərin əfsanəvi şücaətlərini təsvir edərkən, onun Bakıda böyük təntənə ilə qarşılandığından danışır. XII əsrdə Azərbaycanın məşhur şəhərləri sırasında Bakının adının çəkilməsi bizim üçün çox mühümdür [9, s. 6].

XIV əsrin ikinci yarısında Bakının iqtisadi və siyasi əhəmiyyətinin artması nəticəsində Xəzər dənizi bəzi mənbələrdə "Bakı dənizi" kimi də qeyd olunmuşdur; bu fakt 1375-ci ildə tərtib edilmiş katalan atlasında öz əksini tapmışdır.

Şəhərdə günümüzə qədər qorunub saxlanılan tarixi-memarlıq abidələri, o cümlədən XIV əsrə aid Buxara karvansarası və Qız Qalası yaxınlığında yerləşən XV–XVI əsrlərə aid Multani (hind) karvansarası Bakının Şərq ölkələri ilə geniş ticarət əlaqələrinə malik olduğunu göstərir [5]. XVI əsrdəki dağıdıcı müharibələrə, Səfəvilər dövlətinə birləşdirilmiş Şirvandakı bir sıra antifeodal üsyanlara baxmayaraq, Volqa " Xəzər yolunun açılması ilə əlaqədar Bakının iri ticarət mərkəzi və Xəzər dənizində mühüm liman kimi əhəmiyyəti azalmadı [6].

XV əsrdə əsli Bakılı olan Bakuvi ləqəbi daşıyan coğrafiyaşünas Əbdürrəşid ibn-Saleh Bakını daha ətraflı təsvir edir. Biz onun verdiyi məlumatdan şəhərin divarlar və bürclərlə əhatə olunduğunu və daha maraqlı təfsilatı-dənizin şəhər divarlarına və bürclərə qədər çatdığını öyrənirik [9, s. 6].

Təsadüfi deyildir ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakının baş memarı olmuş, sonralar tanınmış mülki mühəndis və memar kimi fəaliyyət göstərən K.B. Skureviç Şirvanşahlar Sarayı kompleksini İslam memarlığının nadir nümunələrindən biri kimi dəyərləndirmişdir. Onun fikrincə, bu ansambl özünəməxsus plan həlli, relyefə uyğun yerləşdirilməsi, həcm-fəza kompozisiyası, memarlıq formalarının incə işlənməsi və əhəng daşından hazırlanmış zəngin ornamental fasad örtüyü ilə seçilərək yüksək bədii dəyərə malikdir [12, s. 5].

Şərqlə Qərb arasında bir körpü olan Bakıda əsrlər boyu müxtəlif mədəniyyət və sivilizasiyalar qovuşmuşdur. Mərkəzi Asiya və Yaxın Şərqlə yanaşı digər ərazilərlə də karvan, eləcə də dəniz ticarət yolu ilə sıx iqtisadi-mədəni əlaqələr saxlayan Bakı neft və duz ixracatçısı kimi tanınmışdır. Bakı özünəməxsus inkişaf yolu keçərək mədəniyyət və ticarət mərkəzinə çevrilmişdir [3].

Neft sənayesinin genişlənməsi ilə əlaqədar olaraq Bakı tədricən Şərq və Qərb memarlıq üslublarının vəhdət təşkil etdiyi unikal şəhər modelinə çevrilmişdir. Şəhərin tarixi mərkəzi ilə sonradan salınmış yaşayış məhəllələri arasında həm funksional, həm də estetik baxımdan tarazlıq yaradılmış, beləliklə, qədim memarlıq irsi ilə müasir urban elementlər eyni məkan daxilində uzlaşdırılmışdır. Bu inkişaf yalnız şəhərin fiziki genişlənməsi ilə məhdudlaşmamış, eyni zamanda şəhər idarəçiliyi və planlaşdırma prinsiplərində də mühüm dəyişikliklərin baş verməsinə səbəb olmuşdur [13].

Bakı şəhərinin inkişaf modeli digər regional şəhərlərlə müqayisədə daha kompleks xarakter daşıyır. Bu, ilk növbədə şəhərin iqtisadi əsasının neft sənayesinə bağlı olması ilə izah olunur. Neft faktorunun şəhərsalma prosesinə təsiri yalnız iqtisadi artımda deyil, həm də urban strukturun dəyişməsində, əhali sıxlığının artmasında və yeni memarlıq formalarının yaranmasında özünü göstərmişdir. Bu baxımdan Bakı postsənaye transformasiyasını daha erkən yaşayan şəhərlərdən biri kimi qiymətləndirilə bilər [2].

2000-ci ildə İçərişəhər qala divarları, Qız Qalası və Şirvanşahlar Sarayı kompleksi UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmişdir. Bununla yanaşı, açıq səma altında fəaliyyət göstərən Qala Arxeoloji-Etnoqrafik Muzeyi də Bakının qədim tarixini əks etdirən mühüm mədəni məkanlardan biridir. Bu ərazidə aparılmış arxeoloji tədqiqatlar

nəticəsində aşkar edilmiş tapıntılar və memarlıq nümunələri eramızdan əvvəl III əsrdən başlayaraq XX əsrə qədər uzanan geniş tarixi dövrü əhatə edir [3].

UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş abidələr Azərbaycanın şəhərsalma və memarlıq ənənələrinin beynəlxalq səviyyədə tanındığını əyani şəkildə göstərir. Qədim və orta əsr şəhər mədəniyyətinin mühüm nümunələri olan İçərişəhər və Şirvanşahlar sarayı kompleksi bu zəngin irsin əsas təmsilçilərindən hesab olunur. Uzun əsrlər boyu qorunub saxlanılan Qız qalası bu gün də öz memarlıq əzəmətini nümayiş etdirir.

Bakı keçmiş SSRİ məkanında iri sənaye mərkəzlərindən birinə çevrilmişdir. Neft hasilatı və emalı ilə yanaşı, neft maşınqayırması, elektronika, cihazqayırma, yüngül və yeyinti sənayesi sahələri də sürətlə inkişaf etmişdir. Qısa müddət ərzində şəhərdə məişət kondisionerləri, cihazqayırma, elektron hesablama maşınları (EHM), şampan şərabı və digər sənaye müəssisələri yaradılmışdır. Bu müəssisələrin istehsal etdiyi məhsullar yalnız daxili bazarda deyil, həm də xarici ölkələrdə rəqabət qabiliyyəti ilə seçilmişdir [7].

Azərbaycan hazırda iqlim dəyişiklikləri və şəhərsalma ilə bağlı qlobal problemlərin həllində fəal iştirak edən və innovativ yanaşmaların tətbiqinə töhfə verən etibarlı tərəfdaş kimi tanınır. Bakının COP29 tədbirinə ev sahibliyi etməsi və bu istiqamətdə əldə olunan nəticələr ölkənin iqlim dəyişikliklərinə qarşı mübarizə, eləcə də yaşıl enerji sahəsində atdığı addımların beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini göstərir. Bununla yanaşı, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının (WUF13) 2026-cı ildə Bakıda keçirilməsi planlaşdırılır. Bu forum dünya miqyasında şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərdən biri hesab olunur. COP29-dan sonra belə mühüm beynəlxalq tədbirin də Bakıda təşkili Azərbaycanın dayanıqlı şəhərsalma sahəsində artan rolunu və qlobal proseslərdə fəal iştirakını bir daha nümayiş etdirir [16].

Ölkədə həyata keçirilən iqtisadi, sosial və mədəni islahatlar paytaxt Bakının urban simasının sürətlə yenilənməsinə səbəb olmuşdur. Müasir memarlıq üslubunda inşa edilən hündür binalar, geniş və abadlaşdırılmış yollar, iri infrastruktur layihələri, yaşıllıq zonaları və parklar, həmçinin yeni universitet şəhərcikləri, yaşayış kompleksləri və biznes mərkəzləri Bakının meqapolis kimi formalaşmasına şərait yaratmışdır. Dünyanın tanınmış mehmanxana şəbəkələrinin fəaliyyət göstərməsi də şəhərin beynəlxalq əhəmiyyətini artıran amillərdən biridir. Son illərdə yaradılmış "Alov qüllələri", Dövlət Bayrağı Meydanı, "Crystal Hall" kimi memarlıq nümunələri müasir Bakının simvollarına çevrilmişdir. Bununla yanaşı, şəhərin sürətli inkişafı fonunda onun qədim memarlıq ənənələri də qorunub saxlanılmışdır. Bakı bu baxımdan Şərq və Qərb sivilizasiyalarının harmonik vəhdətini əks etdirən nadir urban məkanlardan biridir. Bu vəhdəti daha aydın şəkildə hiss etmək üçün İçərişəhər ərazisinə daxil olmaq kifayətdir. Burada yerləşən tarixi abidələr və dar küçələr orta əsr şəhər mühitini xatırladır. Eyni zamanda, sahilyanı zonaya çıxış şəhərin müasir simasını nümayiş etdirir. Məhz bu qədimlik və müasirliyin paralel mövcudluğu Bakının cazibədarlığını artıran əsas amillərdən biri kimi çıxış edir [4, s. 9].

Müasir dövrdə Bakıda inşa edilmiş bir sıra memarlıq obyektləri şəhərin yeni simvollarına çevrilərək yüksək memarlıq nümunələri kimi diqqət çəkir. Bu tikililər sırasında Heydər Əliyev Mərkəzi, "Ağ şəhər" layihəsi, "Bakı Kristal Zalı" və digər müasir komplekslər xüsusi yer tutur. Həmin obyektlər həm şəhərin estetik görünüşünü zənginləşdirir, həm də paytaxta gələn turistlər üçün əsas ziyarət məkanlarından biri hesab olunur. Son illərdə həm Bakıda, həm də regionlarda yeni park və istirahət zonalarının yaradılması şəhərsalma siyasətində mühüm istiqamətlərdən birinə çevrilmişdir. Bu məkanlarda milli memarlıq ənənələri ilə müasir dizayn prinsiplərinin uzlaşdırılması diqqət çəkir. Bununla yanaşı, şəhərsalma fəaliyyətində ekoloji tarazlığın qorunması, ətraf mühitə həssas yanaşma və estetik baxımdan keyfiyyətli urban mühitin formalaşdırılması prioritet kimi çıxış edir.

Beləliklə, Bakı şəhərinin tarixi formalaşması həm coğrafi, həm iqtisadi, həm də mədəni amillərin qarşılıqlı təsiri nəticəsində baş vermiş, onun şəhərsalma və memarlıq xüsusiyyətləri isə çoxşaxəli və kompleks xarakter almışdır. Bu xüsusiyyətlər şəhərin sonrakı inkişaf mərhələləri üçün əsas baza rolunu oynamışdır.

## *Nəticə*

Bakı şəhərinin timsalında aparılan araşdırma göstərir ki, şəhərsalma prosesi tarixi mərhələlər üzrə ardıcıl şəkildə həyata keçirilmişdir. Orta əsrlərdə formalaşmış ənənəvi Şərq şəhər modeli sonrakı dövrlərdə sənayeləşmə və urbanizasiya proseslərinin təsiri ilə dəyişmiş, XIX–XX əsrlərdə isə neft sənayesinin inkişafı nəticəsində yeni struktur yaranmışdır. Bu mərhələ şəhərin sosial və iqtisadi həyatında olduğu kimi, onun memarlıq simasında da mühüm dəyişikliklərə səbəb olmuşdur. Müasir dövrdə isə Bakı şəhərində şəhərsalma və memarlıq sahəsində həyata keçirilən siyasət ənənə ilə müasirliyin sintezinə əsaslanır. Tarixi-mədəni irsin qorunması ilə yanaşı, yeni şəhər mühiti yanaşmaların tətbiqi şəhərin davamlı inkişafını təmin edən əsas amillərdən biri kimi çıxış edir. Bu proseslər çərçivəsində şəhər yalnız fiziki məkan kimi deyil, həm də sosial, iqtisadi və mədəni sistem kimi yenidən formalaşır.

Nəticə etibarilə, Bakı şəhərinin timsalında Azərbaycan şəhərsalma və memarlıq ənənələrinin inkişafı tarixi davamlılıq və transformasiya prinsipləri əsasında baş vermişdir. Bu inkişaf prosesi keçmişin təcrübəsi ilə müasir yanaşmaların vəhdətini təmin etməklə şəhərin gələcək inkişafı üçün möhkəm zəmin yaradır.

## ƏDƏBİYYAT


1. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü. Bakı, "APOSTROF" Çap Evi, 2009, 390 s.
2. Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://arxkom.gov.az/media/xeberler/2026-ci-il-sehersalma-ve-memarliq-ili-elan-edilib
3. Azərbaycanın paytaxtı Bakı haqqında ümumi məlumat. https://www.e-gov.az/az/content/read/23
4. Bakı 2003-2013: hədəflər, inkişaf, nəticələr. Bakı, 2013, 252 s.
5. Bakı şəhəri. https://worldcup2023.fide.com/page/1
6. Bakı şəhərinin tarixi. https://baku-ih.gov.az/az/page/64.html
7. Bakı şəhərinin tarixi. https://kayzen.az/blog/azerbaycan/7762/bak%C4%B1-%C5%9F%C9%99h%C9%99rinin-tarixi.html
8. Bakının yaranması və etimologiyası. https://bakucity.preslib.az/az/page/wBX2Vaq4bG
9. Dadaşov C., Hüseynov M. Bakının memarlıq abidələri. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. Bakı, 1955, 90 s.
10. Əliyeva Z. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu sahədə tarixi ənənələrin yaşadılmasına və mütərəqqi yanaşmaların tətbiqinə çağırışdır"Azərbaycan https://www.azerbaijan-news.az/az/posts/detail/2026-ci-ilin-sehersalma-ve-memarliq-ili-elan-olunmasi-bu-sahede-tarixi-enenelerin-yasadilmasina-ve-mutereqqi-yanasmalarin-tetbiqine-cagirisdir-1766444426/378355
11. Fərhadoğlu K. Bakı. İçərişəhər. Bakı, "Çinar – Çap", 2006, 254 s.
12. Fətullayev Ş. Bakı memarları. XIX əsrin sonu - XX əsrin əvvəlində. Nəşriyyat Evi, 2013, 296 s
13. Qənbərov K. Azərbaycanın şəhərsalma və memarlıq irsinin tarixdən dövlət strategiyasına keçidi. https://www.xalqqazeti.az/az/sosial-heyat/251292-azerbaycanin-sehersalma-memarliq-irsinin-tarixden

14. Quliyeva Z. Milli şəhərsalma irsimiz tarixin yaddaşında. https://www.xalqqazeti.az/az/sosial-heyat/255281-milli-sehersalma-irsimiz-tarixin-yaddasinda
15. Orucov S., Səlimova A. Bakının tarixi şəhər strukturunun transformasiyası https://www.utudas.org/Makaleler/1762435398_XI.%202C.%2068.pdf
16. Sultanova P. Tariximizə, mədəniyyətimizə və milli kimliyimizə bağlılığın təzahürü: "Şəhərsalma və Memarlıq İli" https://525.az/news/316474-tariximize-medeniyyetimize-ve-milli-kimliyimize-bagliligin-tezahuru-sehersalma-ve-memarliq-ili

УДК 94(479.24-25)

*Ширхан Дадаш оглы Салимов,*
*Кямаля Камал кызы Мирзаева*
*Сумгаитский Государственный Университет*

## ИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ ГРАДОСТРОИТЕЛЬНЫХ И АРХИТЕКТУРНЫХ ТРАДИЦИЙ: НА ПРИМЕРЕ ГОРОДА БАКУ

*РЕЗЮМЕ*

*Ключевые слова:* город Баку, градостроительство, архитектурные традиции, урбанизация, нефтяная промышленность, современное развитие

В статье исследуются исторические этапы развития градостроительных и архитектурных традиций Азербайджана на примере города Баку, а также анализируются основные факторы, оказавшие влияние на формирование города на исторической и научной основе. Исследование показывает, что благоприятное географическое положение Азербайджана, особенно его расположение на Великом шелковом пути, сыграло важную роль в формировании и развитии градостроительных процессов. В этом контексте Баку с древнейших времен развивался как важный центр поселения, торговли и культуры.

В работе подробно рассматриваются этапы развития Баку в древний и средневековый периоды, археологические исследования, проведенные на территории Ичеришехер, экономический потенциал города и формирование его архитектурных традиций. В частности, комплекс дворца Ширваншахов, Девичья башня, караван-сараи и другие исторические архитектурные памятники оцениваются как основные показатели богатого архитектурного наследия города. В статье особо подчеркиваются коренные изменения в градостроительной структуре Баку, вызванные развитием нефтяной промышленности, превращением города в промышленный и торговый центр, а также формированием новой городской среды в результате синтеза восточных и западных архитектурных стилей.

В современный период градостроительная политика Баку основывается на применении современных принципов урбанизации наряду с сохранением историко-культурного наследия. Такие современные архитектурные объекты, как «Белый город», Heydar Aliyev Center и Flame Towers, отражают новую модель развития города. В результате развитие градостроительных и архитектурных традиций Азербайджана на примере Баку формировалось на основе единства исторической преемственности, трансформации и современных подходов.

UDC 94(479.24-25)

*Shirkhan Dadash Salimov,*
*Kamala Kamal Mirzayeva*
*Sumgait State University*

# THE HISTORICAL DEVELOPMENT OF URBAN PLANNING AND ARCHITECTURAL TRADITIONS: THE CASE OF BAKU

*SUMMARY*

*Keywords:* Baku city, urban planning, architectural traditions, urbanization, oil industry, modern development

The article examines the historical stages of the development of urban planning and architectural traditions in Azerbaijan using the example of the city of Baku and analyzes the main factors influencing the formation of the city on historical and scholarly grounds. The study demonstrates that Azerbaijan's favorable geographical position, particularly its location on the Great Silk Road, played a significant role in shaping and developing urban planning processes. In this regard, Baku developed in ancient times as an important center of settlement, trade, and culture. The research explains in detail the development of Baku during the ancient and medieval periods, archaeological investigations conducted in the Inner City (Icherisheher), the city's economic potential, and the formation of its architectural traditions. In particular, the Shirvanshahs' Palace Complex, the Maiden Tower, caravanserais, and other historical architectural monuments are regarded as key indicators of the city's rich architectural heritage. The article emphasizes the fundamental changes in Baku's urban structure caused by the development of the oil industry, the transformation of the city into an industrial and commercial center, and the emergence of a new urban environment formed through the synthesis of Eastern and Western architectural styles.

In the modern period, urban planning policy in Baku is based on the application of contemporary urbanization principles alongside the preservation of historical and cultural heritage. Modern architectural examples such as the "White City," the Heydar Aliyev Center, and the Flame Towers reflect the city's new development model. As a result, the development of Azerbaijan's urban planning and architectural traditions, exemplified by Baku, has been shaped by the unity of historical continuity, transformation, and modern approaches.

***Daxil oldu: 29.04.2026-cı il***